

## Ataməli Məcid oğlu Səmədov – 60 il!

2020-ci ilin noyabr ayında tanınmış neftçi-alim, kimya elmləri doktoru Səmədov Ataməli Məcid oğlunun 60 yaşı tamam oldu.

A.M.Səmədov 29 noyabr 1960-cı ildə Bakının Qobu qəsəbəsində anadan olmuşdur. 1978-ci ildə orta məktəbi əla qiymətlərlə başa vurduqdan sonra D.İ.Mendeleyev adına Moskva Kimya-Texnologiya İnstitutuna daxil olmuş və 1984-cü ildə həmin institutu mühəndis-texnoloq ixtisası üzrə bitirmişdir. O, gənc mütəxəssis kimi 1984-1991-ci illərdə "Dənizneftqazlayihə" İnstitutunda mühəndis, böyük mühəndis, elmi işçi, 1991-2009-cu illərdə Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda elmi işçi, böyük elmi işçi və qrup rəhbəri vəzifələrində çalışmışdır.

1992-ci ildə "Dördlü ammonium duzları bakterisid-korroziya inhibitorları kimi" mövzusunda namizədlik, 2006-cı ildə "Neft sənayesi üçün səthi-aktiv maddələr əsasında çoxfunksiyalı reagentlər" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 2007-ci ildə Prezident Aparatı yanında Ali Attestasiya Komissiyasının qərarı ilə ona texnika elmləri doktoru elmi dərəcəsi verilmişdir.

A.Səmədov 2009-cu ildən "Neftqazelmitədqiqatlayihə" İnstitutunun "Parafin və duz çöküntüləri ilə mübarizə" laboratoriyasında aparıcı elmi işçi vəzifəsində çalışır. Onun əsas elmi fəaliyyət istiqaməti neft-mədən şəraitində tətbiq olunan kimyəvi reagenlərin alınması və onların tətbiq texnologiyalarının həyata keçirilməsindən ibarətdir.

A.Səmədov ND-12 markalı deemulqatorun, KD-7 markalı duzçökmə inhibitorunun, NDP markalı depressatorlar və parafinçökmə inhibitorlarının yaradılmasında yaxından iştirak etmişdir. Adları qeyd olunan kimyəvi reagentlər ölkənin quru və dəniz neft yataqları ilə yanaşı Qazaxıstanın "Kazmunayqaz" və "Ozenmunayqaz" neft-qaz şirkətlərinin bir sıra yataqlarında da geniş tətbiq olunur.

O, 130-a yaxın elmi əsərin, o cümlədən 40 patent və ixtiranın müəllifidir. Son beş ildə onun 20 elmi əsəri çapdan çıxmış, Azərbaycan Respublikası və Rusiya Federasiyasının, eləcə də Avrasiya patentlərini almışdır.

A.Səmədov zəngin milli-mənəvi, əxlaqi dəyərlərə malik çoxsahəli həyat yolu keçmiş ziyalılarımızdandır. O, yüksək peşəkarlıq səviyyəsi, səmərəli və məhsuldar fəaliyyəti, əldə etdiyi nailiyyətləri ilə institut kollektivinin hörmət və rəğbətini qazanmışdır.

***Hörmətli Ataməli müəllim!***

Sizi 60 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə yeni elmi nailiyyətlər , möhkəm cansağlığı, uzun ömür, şəxsi həyatınızda xoşbəxtlik arzulayırıq.

**SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun "Parafin və duz çöküntüləri ilə mübarizə" laboratoriyasının əməkdaşları**